# Bağışla bizi, Gülnar!

Ölmək! O geniş körpüdən hər kəs keçəcəkdir,
Bir badə ki, ondan bütün aləm içəcəkdir!
**Cəfər Cabbarlı**

Bir dostum var. Əliheydər adında. Hündür boylu, pəhləvan cüssəli, iti baxışlı, zəhmli, namərdliyə, ikiüzlülüyə, yaltaqlığa düşmən. Bir əfsanə yadıma düşür, həmişə onu görəndə. Əfqan xalqının əfsanəvi qəhrəmanı Bahadır Çilan onun xalqına zülm edən şeytandan qisas almaq üçün şeytanı döyüşə çağırır. Döyüşdə qalib gələn Bahadır Çilan şeytanı öldürmək istəyəndə şeytan ona yalvararaq əl saxlamasını istəyir. Şeytan vəd edir ki, əgər məni öldürməsən, elə edərəm ki, hər gün sənin yastığının altından bir qızıl sikkə çıxar. Bahadır Çilan onu öldürmür və şeytan doğrudan da bir neçə gün vədinə əməl edir. Bir müddətdən sonra  şeytanın şeytanlığı üzə çıxır və artıq yastığın altından heç nə çıxmir. Bahadır Çilan şeytanın onu aldatmasından hiddətlənir və onu yenidən döyüşə çağırır. Bu dəfə şeytan asanlıqla qalib gəlir. Məğlubiyyət haqqında heç düşünməyən Bahadır Çilan bunun necə baş verdiyini anlamır və şeytandan səbəbini soruşur. Şeytan cavab verir ki, birinci dəfə sən öz xalqının səadəti, azadlığı, firavan yaşaması uğrunda vuruşurdun və sənin qollarında, dizlərində, biləyində xalqın gücü var idi, ona görə də mənə asanca qalib gəldin. İkinci dəfə isə sən artıq xalqı unudaraq öz mənafeyin üçün vuruşurdun, xalqın gücü səni tərk etmişdi və buna görə də mən qalib gəldim. Xalqın gücü ilə bağlı bu əfsanəni ona görə yada saldım ki,  Əliheydər xalqını hədsiz dərəcədə sevən, xalqının azadlığı uğrunda, sözün əsl mənasında, canını verməyə hazır olan, azadlıq mübarizəsində həmişə öndə olan bir azadlıq aşiqidir. Bir dəfə söhbətimiz zamanı "mən hər gün evdən çıxanda, sanki geri dönməyəcəm kimi ailəmlə görüşüb çıxıram" demişdi. Sonralar onu tanıyanlarla söhbətlərim zamanı bunun doğrudan da belə olduğunu təkrar-təkrar eşitdim.

Gözəl ailə başçısı, 4 övlad atasıdır Əliheydər. 19 yaşına qədəm qoymuş əkiz oğullarını qəhrəman ruhda tərbiyə edir, onlara Çingizxan və Əlifxan adını verib. Qizlarından biri – Nargilə Bədən Tərbiyəsi və İdman Akademiyasında oxuyur, böyük qızı Gülnar isə 2001-ci ildə Xəzər Universitəsinin Jurnalistika fakültəsinə qəbul olunmuşdu. Lakin təhsil haqqının yüksək olması səbəbindən təhsil ala bilmədi burada. Növbəti il yenidən imtahan verib Azərbaycan Dillər Universitetinin alman dili fakültəsinə daxil oldu.

Yadımdadır, ikinci kursda oxuyurdu Gülnar. Əliheydər yanıma gəldi, Gülnarın oxuduğu ali məktəbdə bir müəllimlə balaca probleminin olduğunu dedi. Yarı fikirli, yarı gülümsəyərək, "nə qədər deyirəm qızım, təmkinli ol, bir az özünü saxla, hər deyilməli olanı demə, amma mümkün olmur ki olmur, ədalətsizliyə heç dözə bilmir, ona görə də belə problemləri yaranır", dedi. Sonra da fəxrlə, "elə mənim özümə oxşayıb da", deyə gülümsədi. Mən də "o sənin qızındırsa, deyilməli olanı mütləq deyəcək, günah səndədir" deyə yarıciddi, yarızarafat əlavə etdim.

Biz lap tez-tez olmasa da, mütəmadi görüşürdük. Hər görüşümüzdə də dünyanın gərdişindən söhbət açmaqla yanaşı, övladlarından, xüsusilə də Gülnardan fəxrlə danışırdı. İmkan düşdükcə, atası ilə birlikdə buraya gəlməsi, Xəzər Universitəsinə bağlılığı Gülnarı mənə də doğmalaşdırmışdı.

...İyun ayının 25-i idi. Telefonum zəng çaldı. Bir nəfər titrək səslə, "mən Əliheydərin qardaşıyam, Əliheydərin qızı Gülnar rəhmətə getdi" dedi. Qulaqlarıma inanmadım, sanki məni ildırım vurdu, çaşıb qaldım, nə deyəcəyimi, nə edəcəyimi bilmədim. Bir qədər sonra həmin telefona zəng edib inanmaq istəmədiyim acı xəbərin həqiqət olduğunu eşitdim. Ciddi səbəblə bağlı, Əliheydərin ata yurdu Salyanda keçirilən dəfn mərasimində iştirak edə bilmədim. Bir müddət sonra Əliheydər Bakıya qayıtdı, Hövsandakı mənzilində yas mərasimində iştirak edib, dərdini bölüşdük.

Mərd, qeyrətli oldüğü qədər də mədəni, etik qaydalara riayət edəndir Əliheydər. Aramızda səmimi münasibətlərin yaranmasına baxmayaraq, heç vaxt qapını döymədən içəri girməzdi. Bu dəfə də qapı döyüldü və içəri daxil oldu. Hal-əhval tutduq. Gözləri dolmuşdu, sanki bir himə bənd idi. Gülnarın diplomunu alıb-almadığını soruşdum. "4 il diplom üçün can qoydu, amma onu görmək qismət olmadı balama" deyib, göz yaşlarına hakim olammadı. Onun kimi cüssəli, zəhmli birinin bu qədər hönkürtü ilə ağlamasını görmək çox çətin idi. Deyirlər ki, kişiyə ağlamaq yaraşmır. Razıyam, yaraşmaya bilər, amma bu "qəti ağlamaq olmaz" anlamına gəlmir. Əgər bəşər övladına sevinmək, kədərlənmək kimi hisslər verilibsə, bu hisslər dərinləşdikcə o mutləq güləcək və ağlayacaq.

*"Kişiyə ağlamaq yaraşmasa da,*
*Bəzən ağlamamaq mənə ar gəlir!*"- deyib şairlərdən biri.

Mən də özümü saxlaya bilmədim. Bu səhnə qarşısında kimsənin özünü saxlaya biləcəyini sanmıram. Səsi zorla eşidiləcək tonda danışmağa çalışdı. “Qucağımda can verdi, son nəfəsində də məni düşündü, ağlama ata, mən sağalacam dedi, belə balanı da itirmək olarmı, İsaxan müəllim?”. Qucaqlayıb təsəlli verməyə çalışdım. Bəzən elə hallar olur ki, təsəlli vermək çox çətin olur və sanki yersiz görünür. O hallardan biri idi. Sakitcə oturub gözlərini bir nöqtəyə zillədi.

Altı ay vaxt keçib o gündən. Amma heç özünə gələ bilmir Əliheydər. Bu sətirləri yazdığım gün - yanvarın 9-da universitetə gəlmişdi. Söhbəti başqa məcraya yönəltmək istəsəm də, mümkün olmadı. Gülnarsız keçən günlərdən danışmağa çalışırdı. Titrək dodaqlar buna imkan verməsə də sakitcə: “qəbrini ziyarətə getmişdim, tək-tənha, qar basıb. Üstü açıq qalar deyə, bir gecədə 4-5 dəfə yoxlayardım, indi bu soyuqda necə yatırsan, qızım” – deyib nəmli gözlərini sildi.

...Cəmi bir neşə gün idi ki son dövlət imtahanını verib ali məktəbi bitirmişdi Gülnar. Qızının bu uğuru ilə sevinməyə, fəxr etməyə haqqı var idi Əliheydərin. Amma sən saydığını say, gör fələk nə sayır. 2008-ci il iyunun 24-dən 25-ə keçən gecə bir toy mərasimindən evə dönərkən Hövsan yolunda baş verən avtomobil qəzası nəticəsində həyata əbədi gözlərini yumdu Gülnar xanım, bu namuslu, qeyrətli azərbaycan balası. Kimdə axtaraq günahı? Toydamı, sürücülərdəmi, onu həyata qaytara bilməyən həkimlərdəmi, yoxsa taleninmi üstünə yazaq hər şeyi?! Bilmirəm, bir onu bilirəm ki, aldığı mükəmməl tərbiyə sayəsində valideynləri üçün fəxrediləcək övlad, vətənpərvərliyi, torpaqsevərliyi, həqiqətpərəstliyi sayəsində vətəni üçün əsl vətəndaş olan və gələcəkdə namuslu, qeyrətli ana olacaq bir xanımı itirdik, heç şübhəsiz.

Bağışla bizi Gülnar, səni qoruya bilmədik bu dünyada. Qoy o dünyada yerin cənnət olsun!

Başın sağ olsun, Əliheydər dostum! Çox zülmlərə sinə gərmisən sən həyatda, bu dərdə də dözməlisən. Özünü ələ al, həyat mübarizəsini davam etdir. Evdəkilərin könlü, Gülnarın ruhu şad olsun deyə!

İsaxan İsaxanlı,
Xəzər Universitəsi

***Mənbə:***

***Хязяр-Хябяр, (журнал) № 261, 15 yanvar 2009. Хязяр Университяси***